# Azərbaycanın müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib



Rusiyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələrin noyabrın 10-da Moskvada keçirilən Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə MDB iştirakçı-dövlətlərinin müdafiə nazirləri Moskvadakı Aleksandr bağında "Naməlum əsgər" abidəsini ziyarət edərək önünə çələng və gül dəstələri qoyublar. Sonra xatirə fotosu çəkdirilib.

Daha sonra gündəmdə duran məsələlər iclasda müzakirə olunub.

Azərbaycan.- 2021.- 11 noyabr.- S.12.